# “Təhsil müəssisəsində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.19-cubəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təhsil müəssisəsində iaşə və tibb xidmətinin təşkili Qaydası və Normaları” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 25 noyabr 2010-cu il
№ 218

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 25 noyabr tarixli 218 nömrəli qərarı
ilə
TƏSDİQ EDİLMİŞDİR

## Təhsil müəssisələrində iaşə və tibbi xidmətinin təşkili Qaydası və Normaları

### 1. Ümumi müddəalar

1.1. “Təhsil müəssisələrində iaşənin və tibbi xidmətin təşkili Qaydası və Normaları” (bundan sonra - Qaydalar) “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır və mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrində iaşənin və tibbi xidmətin təşkili məsələlərini tənzimləyir.

1.2. Bütün təhsil müəssisələrində iaşə və tibb xidməti sanitariya norma və qaydalarına uyğun təşkil olunmalıdır. Təhsil müəssisələrinin rəhbərləri bu Qaydaların tələblərinə əməl edilməsinə görə məsuliyyət daşıyırlar.

### 2. İaşənin təşkili

2.1. Təhsil müəssisəsinin tipindən, növündən və tədris müddətindən asılı olaraq, iaşə obyektləri bufet və (və ya) yeməkxana formasında təşkil edilir.

2.2. Təhsil müəssisəsində iaşə xidməti təhsil müəssisəsi ilə hüquqi və fiziki şəxslər arasında bağlanan müqavilə əsasında qanunvericiyə müvafiq olaraq təşkil olunur.

2.3. Təhsil müəssisələrində fəaliyyət göstərən iaşə obyektləri aşağıdakılardır:

- ərzaq xammalı əsasında işləyən yeməkxanalar;
- yarımfabrikat əsasında işləyən yeməkxanalar;
- bufet-paylayıcı kimi fəaliyyət göstərən iaşə obyektləri.

2.4. Bufet və yeməkxanalar üçün qida qəbulu zalları ayrılır. Onların sahəsi qüvvədə olan tikinti və sanitariya normalarına uyğun olmalıdır.

2.5. Təhsil müəssisələrində fəaliyyət göstərən iaşə obyektlərinin sanitariya-texniki vəziyyəti, xammal və məhsulların saxlanma şəraiti, istehsalat rejimi, istehsalat sahələri, avadanlıqlar və s. sanitariya norma və qaydalarına uyğun olmalıdır.

2.6. Qida blokunun (mətbəx, ərzaq məhsulları anbarı, qida qəbulu zalı, bufet, yeməkxana) işçiləri işə qəbul edilərkən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada ilkin və sonradan dövri tibbi müayinələrdən keçməlidirlər.

Aşağıdakı xəstəlikləri olan şəxslər işə qəbul olunmurlar, işləyənlər isə tam sağalanadək işdən kənarlaşdırılırlar:

- qarın yatalağı, paratiflər, salmonellyoz, dizenteriya ilə xəstələnmə və basil gəzdirmə;
- himenolipidoz, enterobioz;
- sifilis (yoluxucu dövrdə) ;
- cüzam;
- yoluxucu dəri xəstəlikləri, qoturluq, trixofitiya, mikrosporiya, favus, bədənin açıq sahələrində xoralaşma və sviş verən aktinomikoz;
- ağciyər vərəminin yoluxucu və destruktiv formaları, svişi olan və ciyərdən kənar vərəm, bakteriya, üzün və əllərin vərəm qurdeşənəyi;
- qonoreya (bütün formaları);
- dərinin irinli xəstəlikləri.

2.7. Qida blokunun işçiləri iki ildən bir dəfədən az olmayaraq, sanitariya-gigiyena minimumlar üzrə hazırlıq kursları keçməlidirlər.

**3. Tibb xidmətinin təşkili**

3.1. Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrində təhsilalanlar ərazi və ya tələbə poliklinikaları tərəfindən tibb xidməti ilə təmin edilirlər.

Təhsil müəssisələrində təhsilalanlara ambulator tibb xidmətinin təşkili üçün həkim və ya tibb məntəqəsi yaradıla bilər.

3.2. Hər bir təhsil müəssisəsi tərəfindən tibb xidmətinin təşkili üçün müvafiq sayda otaqlar və avadanlıqlar ayrılır.

3.3. Təhsil müəssisələrində tibb xidməti təhsil müəssisəsinin iş qrafikinə uyğun şəkildə təşkil edilməlidir.

3.4. Təhsilalanların profilaktik müayinəsi, immunoprofilaktika proqramları çərçivəsində profilaktik peyvəndlərin edilməsi təhsil müəssisələrinin rəhbərliyi ilə əvvəlcədən razılaşdırılmış qrafik üzrə aparılır.

## 4. Təhsil müəssisəsinə xidmət edən tibb işçilərinin əsas vəzifələri

Təhsil müəssisəsinə xidmət edən tibb işçilərinin əsas vəzifələri aşağıdakılardır:

- pedaqoji kollektivlə birlikdə uşaqların siyahıya alınmasını aparmaq, onların təhsilə funksional hazırlığını müəyyən etmək, təhsilalanların adaptasiya rejimi üzrə və peşə yönümünə(təmayülünə) görə tövsiyələr vermək;
- təhsilalanların profilaktik müayinəsini aparmaq və profilaktik peyvəndlər etmək;
- pedaqoji kollektivlə birlikdə uşaqları və valideynləri sanitariya-gigiyena, sağlam həyat tərzi, reproduktiv sağlamlıq və digər səhiyyə məsələləri üzrə maarifləndirmək;
- uşaqları fiziki inkişaf dərəcəsinə görə bədən tərbiyəsi üzrə tibbi qruplara bölmək, fiziki tərbiyənin effektivliyinin təhlilini aparmaq, fiziki tərbiyənin aparılmasına nəzarət etmək;
- təhsil müəssisəsinin, o cümlədən qida blokunun sanitariya-gigiyena və əksepidemik rejiminə, işçilərin vaxtlı-vaxtında tibbi müayinədən keçməsinə, risk qrupundan olan uşaqların fərdi qidalanmasının təşkilinə gündəlik nəzarət etmək;
- menyunun təşkilində iştirak etmək;
- dərs cədvəlinin təşkili zamanı tövsiyələr vermək.